Mərkəzi Seçki Komissiyasının bəzi normativ
xarakterli aktlarında dəyişiklik edilməsi barədə
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli 1769 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" 2006-cı il 17 avqust tarixli 446 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında və "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019 – 2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 18 dekabr tarixli 819 nömrəli və "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 1983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2021-ci il 28 aprel tarixli 2609 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" 2022-ci il 28 noyabr tarixli 1890 nömrəli fərmanlarını rəhbər tutaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

**1.** Mərkəzi Seçki Komissiyasının 2008-ci il 4 iyul tarixli 6/23-7 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları"na 1 saylı Əlavədə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** mətn üzrə "Təhsil Nazirliyi" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

**1.2.** "I mərhələ – Namizədliyin irəli sürülməsi" hissəsi üzrə:

**1.2.1.** "Öhdəlik barədə ərizədəki yoxlanılmalı məlumatlar:" adlı (ikinci halda) bənddə "h)", "x)", "i)", "ı)" hərfləri (hər iki halda) müvafiq olaraq "g)", "ğ)", "h)", "x)" hərfləri ilə əvəz edilsin;

**1.2.2.** "Namizədlik siyasi partiyalar tərəfindən irəli sürüldükdə, Mərkəzi Seçki Komissiyası tərəfindən yoxlanılmalı sənədlər və namizədliyin irəli sürülməsi prosedurunun qanunauyğunluğu:" adlı bənddə "i)", "e)", "ə)" hərfləri (hər iki halda) müvafiq olaraq "e)", "ə)", "f)" hərfləri ilə əvəz edilsin;

**1.2.3.** "Namizədliyin irəli sürülməsinə razılıq verilməsi barədə ərizədəki yoxlanılmalı məlumatlar:" adlı bənddə "i)" hərfi (hər iki halda) "ı)" hərfi ilə, "ı)" hərfi isə "i)" hərfi ilə əvəz edilsin.

**2.** Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23-3 saylı Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nda mətn üzrə "Təhsil Nazirliyi" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

**3.** Mərkəzi Seçki Komissiyasının 2015-ci il 25 may tarixli 10/87 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim

olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları”na 1 saylı Əlavədə aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** mətn üzrə “Təhsil Nazirliyi” sözləri “Elm və Təhsil Nazirliyi” sözləri ilə, “Qeydiyyat və Notariat Baş İdarəsi” sözləri isə “Ədliyyə sahəsində xidmətlər baş idarəsi” sözləri ilə əvəz edilsin.

**3.2.** “I mərhələ – Namizədliyin irəli sürülməsi” hissəsi üzrə:

**3.2.1.** “Öhdəlik barədə ərizədəki yoxlanılmalı məlumatlar:” adlı (hər iki halda) bəndə “İmza, ərizənin yazılma tarixi.” sözlərindən əvvəl “ı)” hərfi əlavə edilsin;

**3.2.2.** “Razılıq barədə ərizədəki məlumatlar:” adlı (hər iki halda) – bəndə “İmza, ərizənin yazılma tarixi.” sözlərindən əvvəl “ı)” hərfi əlavə edilsin.

**4.** Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |